## TANAP-ın təməlinin qoyulmasından bir il keçir

# "Cənub qaz dəhlizi"nin onurğa sütunu




**2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Transanadolu Qaz Boru Kəmərinin (TANAP) təməli qoyuldu. Mərasimdə üç ölkənin rəhbərləri - Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili iştirak edirdilər. Bu da təsadüfi deyil.**

Çünki 3500 kilometr məsafə qət edəcək "Cənub qaz dəhlizi" Avropaya bu üç ölkənin ərazisindən keçərək uzanacaq. Başqa sözlə, "Cənub qaz dəhlizi" üç böyük kəmərdən ibarət olacaq. Onlardan birincisi Azərbaycandan və Gürcüstandan keçən CQBK (Cənubi Qafqaz Boru Kəməri), ikincisi TANAP, sonuncusu isə TAP - Transadriatik Qaz Boru Kəməridir.

TANAP "Cənub qaz dəhlizi"nin ən böyük hissəsidir. Belə ki, CQBK Gürcüstan-Türkiyə sərhədində TANAP-a bağlanacaq. Bundan sonra Türkiyənin ərazisi ilə uzanan TANAP Yunanıstan-Türkiyə sərhədinə çatacaq və burada yerləşən Kipoi ərazisində TAP-a qovuşacaq.

TANAP üzrə hökumətlərarası sazişi 2012-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt baş naziri, indi isə Prezidenti olan Rəcəb Tayyib Ərdoğan İstanbulda imzalamışlar. Bu, Azərbaycanın və Türkiyənin, hər iki ölkənin dövlət başçılarının birgə səyi nəticəsində gerçəkliyə çevrilən bir layihədir.

TANAP Türkiyənin 20-dən çox bölgəsindən, o cümlədən Ərdəhan, Qars, Ərzurum, Gümüşhanə, Ərzincan və digər bölgələrdən keçəcək. Onun uzunluğu 1850 kilometr olacaq. Kəmərin tikintisi həm onun keçdiyi məsafənin böyüklüyünə, həm coğrafi ərazilərin müxtəlifliyinə, həm də infrastrukturun mürəkkəbliyinə görə asan deyil. Belə ki, bu xətt Türkiyədəki istehlakçılar üçün nəzərdə tutulmuş qazı Əskişəhərə 56 düymlük borularla nəql edəcək. Trakyada yerləşən ikinci çatdırılma məntəqəsinə qədər də həmin ölçülü borular uzanacaq. Əskişəhərdə kəmərin diametri 48 düymə qədər daraldılacaq. Avropa istehlakçıları üçün qaz isə TAP-ın Yunanıstanın giriş məntəqəsində yerləşən 48 düymlük kəmərlə nəql ediləcək.

Bununla belə, TANAP-ın tikintisi uğurla irəliləyir. Bu, "Cənub qaz dəhlizi" ilə bağlı keçirilən bütün tədbirlərdə vurğulanır.

Bu il fevralın 29-da "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin Bakıda keçirilən ikinci toplantısında Prezident İlham Əliyev demişdir: "Hər ölkə layihənin öz ərazisində reallaşmasında məsuliyyət daşıyır. Fikrimcə, 2016-cı il bu baxımdan mühüm il olacaq. Ötən il biz artıq gözəçarpan irəliləyişə nail olduq. Hesab edirəm ki, ölkələrimizdəki ictimai rəy bu layihənin vacibliyini bütövlükdə müsbət dəyərləndirir. Hesab edirəm ki, biz güclü tərəfdaşlıq və əməkdaşlıqla bu məqsədlərə nail olacağıq. TANAP layihəsinin həyata keçirilməsi hazırda olduqca fəal mərhələdədir. Əminəm ki, o, vaxtında, hətta cədvəldən əvvəl icra ediləcək. Əlbəttə, istərdim ki, eyni yanaşma Transadriatik layihəsinin həyata keçirilməsində də olsun".

TANAP layihəsinin baş meneceri Saltuk Düzyol Bakıda həmin tədbirdə olarkən bir neçə il bundan əvvəl Azərbaycan və Türkiyə arasında imzalanmış hökumətlərarası sazişi və ev sahibi hökuməti müqaviləsinin imzalanmasını xatırladaraq TANAP-ın keçdiyi yola nəzər saldı: "O vaxtdan müxtəlif işlər həyata keçirilib. 2014-cü ilin ortalarınadək biz layihələndirməni, araşdırmaları tamamladıq. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqavilələri imzalandı və biz kəmərin detallı layihələndirilməsinə başladıq. Ümumilikdə 2014-2015-ci illər TANAP layihəsi üçün aktiv fəaliyyət dövrü olub. Təməlqoyma mərasimi Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə 2015-ci il martın 17-də keçirildi. O vaxtdan indiyədək bir sıra müqavilələr imzalanıb".

Saltuk Düzyol kəmər üçün ilk qazın 2018-ci ildə tədarük olunacağı, 2020-ci ildən isə mavi yanacaq axınının başlanacağı barədə də məlumat verdi.

TANAP üçün indiyədək 940 kilometr boru istehsal edilib. Bu, kəmərin çəkilişi üçün lazım olan boruların təxminən yarısına bərabərdir. 720 kilometr boru tikinti sahələrinə təhvil verilib. İlkin mərhələdə TANAP-ın iki qaz-kompressor stansiyasının olacağı, sonralar isə onların sayının 7-yə çatacağı planlaşdırılır.

Təsadüfi deyil ki, toplantı iştirakçıları yekdilliklə TANAP-ın uğurlarından məmnunluqlarını ifadə etdilər. Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak bir daha layihənin əhəmiyyətindən danışdı. O, "Cənub qaz dəhlizi"nin mühüm qolu olan TANAP-ın reallaşmasında Türkiyənin siyasi, iqtisadi və texniki dəstəyinin davam etdiriləcəyini bildirdi.

Xatırladaq ki, "Cənub qaz dəhlizi"nin əsas ehtiyat mənbəyi Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağıdır. Həmin dəhlizlə "Şahdəniz"in işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılacaq ildə 16 milyard kubmetr qaz nəql olunacaq. Bu həcmin 6 milyard kubmetri Türkiyənin, 10 milyard kubmetri Avropa ölkələrinin payına düşəcək.

TANAP-ın ilk qazı Türkiyə alıcılarına təxminən 2018-ci ilin sonunda çatdıracağı gözlənilir. Qazın Avropaya ötürüləcəyi isə bir il ondan sonraya nəzərdə tutulub. Daha sonra nəql olunan qazın həcmi artacaq, 2023-cü ildə 23 milyard kubmetrə, 2026-cı ildə 31 milyard kubmetrə çatacaq.

Bu günlərdə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının Ankarada keçirilən beşinci iclasında Prezident İlham Əliyev TANAP-ın icrasının artıq reallaşdığını və layihənin uğurla başa çatdırılacağına əminliyini bir daha bildirmişdir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da layihənin mümkün qədər qısa vaxtda həyata keçiriləcəyinə əmin olduğunu demişdir: "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsi üçün TANAP layihəsi üzrə səmərəli əməkdaşlığımız var. Hazırkı dövrdə "Cənub qaz dəhlizi"nin əhəmiyyəti daha da artıb. Bu dəhlizin onurğa sütununu isə TANAP təşkil edir. Bu baxımdan layihə mümkün qədər qısa vaxtda həyata keçirilməlidir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***